**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№280/2** **7 noyabr 2016-cı il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının 2016-cı il üzrə iş planının 6.4-cü "Auditorlar Palatasının fəaliyyətinə dair tədbirlərin KİV-də işıqlandırılmasının təşkili" bəndinin icrası ilə əlaqədar hesabat barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2016-cı il üzrə iş planının 6.4-cü "Auditorlar Palatasının fəaliyyətinə dair tədbirlərin KİV-də işıqlandırılmasının təşkili" bəndinin icrası ilə əlaqədar Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsi (S.Gülməmmədov) tərəfindən hazırlanmış hesabatı müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditorlar Palatasının fəaliyyətinə dair tədbirlərin KİV-də işıqlandırılmasının təşkili" bəndinin icrası ilə əlaqədar hesabat nəzərə alınsın (əlavə olunur).
2. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova, Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi S.Gülməmmədova, sədrin müşaviri F.Qarayevə, Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimova, həmin idarənin təsərrüfat bölməsinin müdiri N.İsmayılova və Palata Şurasının yanında İnformasiya və mətbuat üzrə komitəyə (N.Kərimov) tapşırılsın ki, Auditin təşviqinə və auditə ictimai etimadın yüksəldilməsinə xidmət edən məzmunda 2017-ci il təqvimlərinin və Auditor xidmətinin təbliğini təmin etmək məqsədilə müasir şəraitdə təsərrüfat subyektləri və sahibkarlar üçün bukletlərin hazırlanmasını 2016-cı ilin dekabr ayı ərzində təmin etsinlər.
3. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi S.Gülməmmədova, Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimova, Aparatın informasiya texnologiyaları üzrə mütəxəssisi İ.Zeynallıya tapşırılsın ki, məcburi auditlə bağlı yeni reklam çarxının və müvafiq elanın hazırlanmasını və KİV-də işıqlandırılmasını 2016-cı ilin dekabr ayı ərzində təmin etsinlər.
4. Aparatın rəhbəri Q.Bayramova, sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova, sədrin müşaviri F.Qarayevə, Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov), Maliyyə və təsərrüfat idarəsinə (V.Rəhimov) və Palata Şurasının yanında İnformasiya və mətbuat üzrə komitəyə (N.Kərimov) tapşırılsın ki, Dekabr ayının 2-ci yarısında auditin müasir problemləri, iqtisadi islahatlarda rolu və əhəmiyyəti, auditin inkişafına dövlət dəstəyini əhatə etməklə televiziya kanallarından birində maraqlı tərəflərin və auditorların iştirakı ilə dəyirmi masaların (diskusiyaların) keçirilməsini təmin etsinlər.
5. Aparatın informasiya texnologiyaları üzrə mütəxəssisi İ.Zeynallıya tapşırılsın ki, bu qərarın mətninin və hesabatın Palatanın internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**